# Böyük Qayıdışın müjdəçisi

**2021-ci ilin 26 aprelini xatırlayıram. Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə 6 ay ərzində baş tutan 7-ci səfərini... Dövlət başçısının Cəbrayıl və Zəngilan rayonlarına bu səfəri onu göstərdi ki, Qarabağın, Şərqi Zəngəzurun bərpası dövlət başçısının qarşıya qoyduğu milli prioritetdir. Bu səfəri əvvəlkilərindən fərqləndirən daha bir məqam da var idi. Məhz həmin gün işğaldan azad olunmuş ərazilərdə yaşayış məntəqələrinin bərpası layihəsinə start verildi.**




## Ağalı kəndinin təməlqoyma mərasimində uçurulan sülh göyərçinlərinin üzü Göyçəyədir

"Ağıllı kənd" pilot layihəsi çərçivəsində bərpa ediləcək Zəngilanın Ağalı kəndinin təməlqoyma mərasimində dövlət başçısını müşayiət edən Mehriban xanımın: "Göyərçinlər indi uçmalıdır" sözlərini isə keçmiş məcburi köçkünlərin doğma torpaqlarına hər dəfə köç karvanı yola düşəndə yada salır və düşünürəm: Göyərçin axı sülh quşudur...

Təməlqoyma mərasimində qalib sərkərdə, dövlət başçısı İlham Əliyev əsası qoyulan quruculuq işlərinin uğurla davam etdiriləcəyini, Böyük Qayıdışın başladığını söyləmişdi: "Zəngilanda bu gün birinci kənd layihəsi artıq icra edilməyə başlamışdır. Ağalı kəndinin əsası qoyulmuşdur... bu, nümunəvi kənd olacaq. Çünki bu kənddə tətbiq olunacaq texnologiyalar ən müasir standartlara cavab verir... Zəngilanın bütövlükdə təbiəti və təbii sərvətləri bu rayonu Azərbaycanın ən qabaqcıl rayonlarının birinə çevirmək üçün imkanlar verəcəkdir".

Daha sonra dövlət başçısı Zəngilan Beynəlxalq Hava Limanının, Zəngilan-Horadiz avtomobil yolunun təməlini qoydu. Zəngilan məscidinin yenidən bərpası, konservasiyasına başlanıldı. Həmin gün dövlət başçısı, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Mincivan qəsəbəsinə yola düşdülər. Mincivan dəmir yolu vağzalına gələn Prezident burada qızğın döyüşlərin getdiyini, Silahlı Qüvvələrimizin böyük qəhrəmanlıq göstərdiyini, Mincivan qəsəbəsini azad etdiyini və bundan sonra ordumuzun sonadək uğurla irəlilədiyini qeyd etdi.

2021-ci il fevralın 15-də Həkəri çayı üzərində "Gülabird" Su Elektrik Stansiyası işə salındı. Bu stansiya Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrinin təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Stansiyanın işə salınması, həmçinin Həkəri çayının suyundan səmərəli şəkildə istifadə etməyə imkan verəcək.

Stansiyanın işə salınmasının həm də rəmzi mənası var idi. Əvvəla, bu, işğaldan azad edilmiş ərazilərdə ilk elektrik stansiyası idi və düşmənə bir mesaj oldu: Biz bu torpaqlara qayıdırıq. Ümumiyyətlə, dövlət başçısının bölgələrə etdiyi səfərlər bu ərazilərdə aparılan işlərin intensivliyini stimullaşdıran əsas amildir. Prezidentin hər bir layihənin icrasını xüsusi diqqətdə saxlaması işlərin yüksək effektivliyini təmin edir. 2022-ci il iyunun 26-27-də Göygöl, Kəlbəcər və Laçın rayonlarına səfəri çərçivəsində dövlət başçısı təməlqoyma və açılış mərasimlərində iştirak etdi. Kəlbəcər İşğal və Zəfər muzeyləri kompleksinin, Rəqəmsal İdarəetmə Mərkəzinin su istehsalı zavodunun təməli qoyuldu.

Səfər çərçivəsində Prezident İlham Əliyev Kəlbəcərdə yeni tikilmiş "N" saylı hərbi hissənin açılışında oldu, komando hərbi hissəsinə döyüş bayrağını təqdim etdi.

İşğaldan azad olunmuş ərazilərin bərpası ilə bağlı Strateji Fəaliyyət Planına əsasən, bərpa işləri məskunlaşma zonalarının miqyasından və iqtisadi potensialından asılı olaraq 3 mərhələdə aparılır. Əlbəttə, əhalinin köçürülməsi üçün ilk növbədə, infrastruktur yaradılmalıdır. Bunun üçün isə şübhəsiz ki, vaxt tələb olunur. Doğrudur, artıq Zəngilan, Şuşa və Laçın rayonlarında, bəzi yaşayış məntəqələrində həyat müəyyən qədər bərpa olunub. İndiyədək işğaldan azad olunmuş ərazilərdə 8 min insan evlə təmin edilib. Qarabağa və Şərqi Zəngəzura köç mərhələli şəkildə təşkil olunub. Məsələn, Şuşanın ərazi planlaşdırılma layihələrinin təqdimatında bildirilib ki, 2040-cı ilə qədər şəhər əhalisinin sayının 25 min nəfərə, mənzil fondunun 750 min kvadratmetrə çatdırılması nəzərdə tutulur.

Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq sürətlə davam edir. Əsas məqsəd keçmiş məcburi köçkünlərin tezliklə öz dədə-baba torpaqlarına qayıtmasıdır. Füzulinin Dövlətyarlı kəndində ikinci "ağıllı kənd" layihəsi icra olunur. Burada da "ağıllı kənd"ə uyğun mühüm infrastruktur qurulacaq. Kəndin Zəngilan rayonunun Ağalı kəndindəki birinci "ağıllı kənd"dən daha böyük olacağı gözlənilir. Belə ki, burada 1500-ə yaxın ev tikiləcək. Bölgədə meliorasiya və su təsərrüfatı kompleksinin bərpası və inkişafı istiqamətində görülən işlər də diqqət çəkir. Ən çox suvarılan torpaq sahəsinə malik olan Füzuli rayonunda 26,4 min hektar ərazinin suvarma suyu ilə təmin edilməsi məqsədilə meliorasiya və su təsərrüfatı obyektlərinin təmir-bərpa işləri də planauyğun şəkildə həyata keçirilir. Dövlət başçısı İlham Əliyev 2023-cü il sentyabrın 20-də xalqa müraciətində deyib: "Biz bütün Qarabağı və Şərqi Zəngəzuru yenidən qururuq, görün, nə qədər böyük işlər görürük, cəmi iki il ərzində. O bölgədə bəlkə də 30 il ərzində heç bir faiz də iş görülməyib - elektrik stansiyaları, körpülər, tunellər, su anbarları, yaşayış binaları, kəndlər, şəhərlər qurulur. Cəmi iki il ərzində. Heç bir yardım almadan, özümüz. İkinci Qarabağ müharibəsi başa çatanda mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik və çeviririk, hər gələn insan onu görür...".

Azərbaycan Vətən müharibəsindən ötən 4 ilə yaxın müddətdə azad olunmuş ərazilərdə nəhəng layihələr həyata keçirməklə bütün dünyaya bu torpaqların əsl sahibinin kim olduğunu bir daha nümayiş etdirir. Eyni zamanda keçmiş məcburi köçkünlərin doğma ata-baba yurdlarına qayıdışı təmin olunur, Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən canlanır. Köç karvanlarının ardı-arası kəsilmir. İllər öncə ilk yaşayış məntəqəsinin təməli qoyulduğu gün uçurulan sülh göyərçini bu azad məmləkətin səmalarında qorxmadan, ürkmədən qürurla uçur, həm də üzü Göyçəyə tərəf. Səman aydın olsun, sülhsevər xalqın sülh göyərçini!..

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**